**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№291/5** **"19" oktyabr 2017-ci il**

## Azərbaycan Respublikasının Auditorlar Palatasında Mətbuat xidmətinin yaradılması və «İqtisadiyyat və audit» qəzetinin təsis edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 aprel tarixli 1993 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı»na və «Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası»nın (2012-2020-ci illər) 9-cu «Auditin təbliği və təşviqi» bölməsinə uyğun olaraq dünyada və ölkə iqtisadiyyatında baş verən əhəmiyyətli hadisələrin peşəkar auditorlar və ekspertlər tərəfindən təhlil edilməsi və ictimai müzakirəyə çıxarılması, Palatanın gördüyü işlər barədə ölkə ictimaiyyətinin mütəmadi məlumatlandırılması, Palatanın üzv olduğu beynəlxalq təşkilatlarla, habelə əməkdaşlıq etdiyi audit və mühasibat qurumları ilə informasiya mübadiləsinin təşkili məqsədilə «VXA-AUDİT» MMC-nin direktoru Elçin Qurbanovun Auditorlar Palatasında Mətbuat xidmətinin yaradılması və «İqtisadiyyat və audit» onlayn ictimai qəzetin (internet qəzetinin) təsis edilməsi barədə 2017-ci il 2 oktyabr tarixli GM.AS № 040/1017-8 nömrəli məktubla göndərdiyi müraciətini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasında Mətbuat xidmətinin yaradılması və «İqtisadiyyat və audit» onlayn ictimai qəzetin (internet qəzetinin) təsis edilməsi məqsədəmüvafiq hesab edilsin.

2. Auditorlar Palatasının Aparatına (Q.Bayramov) tapşırılsın ki, Mətbuat xidmətinin yaradılması və «İqtisadiyyat və audit» onlayn ictimai qəzetin (internet qəzetinin) təsis edilməsi ilə əlaqədar təşkilati tədbirlərin həyata keçirilməsini Auditorlar Palatasının 2018-ci il üzrə iş planına daxil edilsin.

3. Bu qərarın mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**